# Qobustan qəsəbəsində YAP fəalları ilə görüş keçirildi









**Dünən Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev əvvəlcədən tərtib olunmuş cədvələ uyğun olaraq Qaradağ rayonunun Qobustan qəsəbəsində yerləşən 81 saylı Ərazi Partiya Təşkilatının (321 №-li tam orta məktəb) fəalları ilə görüşüb.**

Görüşdə 321 №-li tam orta məktəbin YAP üzvü olan müəllimləri, bitərəflər və texniki heyət iştirak edib.

Tədbiri açan məktəbin direktoru Könül Hüseynova bildirib ki, YAP rayon təşkilatı sədrinin ƏPT fəalları ilə təşkil edilən bu görüşü, onları fərdi qaydada dinləməsi xüsusi əhəmiyyətə malikdir. Belə ki, YAP rayon təşkilatının rəhbərliyinin partiyanın sıravi üzvləri ilə gürüşməsi, ölkəmizin həyatında və dünyada baş verən son hadisələr barədə onları məlumatlandırması, YAP üzvlərinin qarşılaşdığı problemləri öyrənməsi və bu problemlərin müvafiq qurumların diqqətinə çatdırılması ƏPT və YAP üzvləri ilə işin daha səmərəli təşkilinə mühüm təsir edəcək.

Görüşdə çıxış edən YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev cari ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunduğunu xatırladıb. O, bildirib ki, xalqımızın Ümummilli liderin siyasi kursunu daim dəstəkləməsi və Prezident İlham Əliyevin ətrafında sıx birləşməsi nəticəsində cari ilin oktyabrında Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam və qəti şəkildə bərpa olunub. YAP rayon təşkilatının sədri ölkəmizdə və regionda baş verən son hadisələr, Azərbaycanın Qarabağda apardığı lokal antiterror əməliyyatının mahiyyəti, YAP-ın VII qurultayından sonrakı dövrdə partiyada aparılan islahatlar və yenidənqurma, Azərbaycan Prezidenti, YAP sədri, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yürütdüyü daxili və xarici siyasət, İkinci Qarabağ - Vətən Müharibəsində əldə olunmuş Böyük Qələbənin əhəmiyyəti, Qarabağ və Şərqi Zəngəzurda aparılan nəhəng quruculuq və bərpa işləri, uğurla davam edən Böyük Qayıdış, bu yaxınlarda açılışı baş tutumuş Qaradağ Günəş Elektrik Stansiyası və Abşeron Logistika Mərkəzi kimi sənaye obyektlərinin timsalında ölkə iqtisadiyyatının inkişafı məqsədilə həyata keçirilən nəhəng layihələrdən bəhs edib, partiya üzvlərini ölkəmizin ictimai-siyasi həyatında daha fəal iştiraka dəvət edib. Görüş iştirakçılarını səmimi söhbətə çağıran Qafar Əliyev onları baş verən son hadisələrə münasibət bildirməyə, müəllimləri, valideynləri və şagirdləri narahat edən məsələlər barədə açıq danışmağa, qaranlıq qalan məsələlər haqda suallar verməyə səsləyib.

Görüş iştirakçıları YAP Qaradağ rayon təşkilatı sədrinin çıxışını diqqətlə dinləyərək toxunulan məsələlər, vurğulanan fikirlərlə razı olduqlarını bildiriblər. Görüş iştirakçıları -Gülər Səfərova, Nurəddin Hümbətov, Nüşabə Mustafayeva, Xalidə Nuriyeva, Cavid Nağı, Aidə Əhmədova, Ağayar Qaçayev, Şəlalə Qədirli, Rəqsanə İslamova, Lalə Nağıllı, Aidə Əhmədova və başqaları Prezident İlham Əliyevin yeritdiyi daxili və xarici siyasətdən, Qarabağda aparılan antiterror əməliyyatından tam razı qaldıqlarını, istənilən an dövlətimizin başçısının ətrafında bir yumruq kimi birləşməyə hazır olduqlarını və partiya fəalları ilə belə görüşlərin tez-tez keçirilməsinin zəruriliyini bildiriblər. Görüş zamanı partiya üzvləri Qobustan qəsəbəsində və məktəbdə olan problemləri: qəsəbə daxilində məhəllələrarası ictimai nəqliyyatın təşkili, qəsəbəni Bakı ilə birləşdirən əlavə marşrutların açılması, məktəbətrafı ərazilərin və qəsəbədaxili yolların asfaltlaşdırılması, kanalizasiya sisteminin normal işləməməsi, tullantı qablarının azlığı, qəsəbədə internet xətlərinin normal fəaliyyət göstərməməsi, küçələrin normal işıqlandırılmaması, uşaqların asudə vaxtının səmərəli təşkili üçün Şahmat Evi və Musiqi Məktəbinin inşası, əhidlərin adlarının əbədiləşdirilməsi, yeni iş yerlərinin yaradılması və digər problemlərdən bəhs ediblər.

**Görüşdə irəli sürülən təklif və problemlər qeydə alınıb.**

**Azad Rzazadə**